**"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC**

**31 dekabr 2021-ci il tarixinə**

**Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun**
**Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

Scanned with CamScanner

**Mündəricat**

MÜSTƏQİL AUDİTORUN HESABATI ........ 2
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........ 5
MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT ........ 6
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 7
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ........ 8

Maliyyə hesabatları üzrə qeydlər ........ 9-48

Scanned with CamScanner

PRIME
AUDIT·TAX·CONSULTING

PRAXITY™
Empowering Business Globally

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC-nin rəhbərliyinə**

***Maliyyə hesabatları üzrə auditor rəyi:***

1. Bizim fikrimizcə, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq audit zamanı edilmiş düzəliş və əlavələrdən sonra bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Auditin Predmeti**

- 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- Həmin tarixdə başa çatan illər üzrə mənfəət/zərər və sair məcmu gəlir haqqında hesabat;
- Həmin tarixdə başa çatan illər üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- Həmin tarixdə başa çatan illər üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- Əsas uçot siyasətləri və digər izahedici məlumatlar daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

Qeyd etmək istəyirik ki, 2020-ci ilin son qalıqları 2021-ci ilin əvvəlinə köçürülmüşdür.

***Rəy üçün əsaslar***

2. Biz auditi Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.



Scanned with CamScanner

**Müstəqillik.**
Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

***Əsas audit məsələləri***

3. Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti.***

4. Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarına nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

5. Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizə daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BMHS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.



Scanned with CamScanner

Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizim nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların biləşəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında müəssisənin fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatlarımızın tarixlərinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər müəssisənin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələrin, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

27 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Prime Audit and Consulting
member firm of Praxity

AZƏRBAYCAN RESPUBLİKASI AZERBAIJAN REPUBLIC PRIME PRIME AUDIT AND CONSULTING LLC PRIME AUDIT AND CONSULTING MMC



Scanned with CamScanner

"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

| *(Azərbaycan Manatı ilə)* | Qeyd | 31 Dekabr 2021 | 31 Dekabr 2020 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 83,354 | 350,511 |
| Müştərilərə verilmiş kreditlər üzrə debitor borc | 7 | 1,905,402 | 1,453,335 |
| Əmlak və avadanlıqlar | 4 | 133,111 | 41,210 |
| Qeyri-maddi aktivlər | 5 | 7,933 | 9,769 |
| Aktivdən istifadə hüququ | 9 | 82,002 | 42,478 |
| Təxirə salınmış vergi aktivləri | 10 | 178,964 | 127,156 |
| Digər aktivlər | 8 | 61,665 | 25,832 |
| **CƏMİ AKTİVLƏR** | | **2,452,431** | **2,050,291** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 14 | 2,054,000 | 2,054,000 |
| Bölüşdürülməmiş mənfəət | | (716,135) | (508,906) |
| **CƏMİ KAPİTAL** | | **1,337,865** | **1,545,094** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Qiymətli kağızlar | 11 | 405,400 | 405,400 |
| Borc alınmış vəsaitlər | 12 | 571,870 | 23,517 |
| İcarə öhdəliyi | 9 | 81,961 | 44,425 |
| Digər öhdəliklər | 13 | 55,335 | 31,855 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,114,566** | **505,197** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2,452,431** | **2,050,291** |

27 may 2022-ci il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Yaşar Nəcəfov
Direktor vəzifəsini icra edən

Abid Süleymanov
Baş Mühasib



Scanned with CamScanner

**"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC**

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT

| *(Azərbaycan Manatı ilə)* | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| Faiz gəlirləri | 15 | 417,819 | 576,967 |
| Faiz xərcləri | 15 | (78,988) | (85,236) |
| **Xalis faiz gəlirləri** | | **338,831** | **491,731** |
| Ehtiyat xərci/bərpası | 15 | 71,719 | (572,334) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəliri** | | **410,550** | **(80,603)** |
| Haqq və komissiya gəlirləri | 16 | 11,842 | 24,040 |
| İnzibati və digər əməliyyat xərcləri | 17 | (682,257) | (584,150) |
| Digər gəlirlər | 16 | 828 | 3,354 |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **(259,037)** | **(637,359)** |
| Mənfəət vergisi | | 51,808 | 127,156 |
| **İl üzrə mənfəət/zərər** | | **(207,229)** | **(510,203)** |

27 may 2022-ci il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Yaşar Nəcəfov
Direktor vəzifəsini icra edən

Abid Süleymanov
Baş Mühasib



Scanned with CamScanner

**"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| *(Azərbaycan manatı ilə)* | Qeydlər | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 Dekabr 2019 tarixinə qalıq** | | **2,654,000** | **1,297** | **2,655,297** |
| İl üzrə mənfəət/zərər | | - | (510,203) | (510,203) |
| Kapitalin geri götürülməsi | | (600,000) | - | (600,000) |
| **31 Dekabr 2020 tarixinə qalıq** | | **2,054,000** | **(508,906)** | **1,545,094** |
| İl üzrə mənfəət/zərər | | - | (207,229) | (207,229) |
| Kapitalin geri götürülməsi | | - | - | - |
| **31 Dekabr 2021 tarixinə qalıq** | | **2,054,000** | **(716,135)** | **1,337,865** |

27 may 2022-ci il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Yaşar Nəcəfov
Direktor vəzifəsini icra edən

Abid Süleymanov
Baş Mühasib



Scanned with CamScanner

"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| *(Azərbaycan manatı ilə)* | **2021** | **2020** |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Mənfəət vergisindən öncəki mənfəət/zərər | (259,037) | (637,359) |
| **Qeyri-maddi və qeyri əməliyyat fəaliyyətləri üzrə düzəlişlər** | | |
| Torpaq, tikili və avadanlıqların amortizasiyası | 89,391 | 236,198 |
| Ehtiyat xərci/bərpası | (71,719) | 572,334 |
| Faiz xərcləri | 78,988 | 85,236 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərindən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul** | **(162,377)** | **256,409** |
| **Dövriyyə kapitalında olan dəyişikliklər** | | |
| Müştərilərə verilmiş kredit və avanslar | (380,348) | 861,484 |
| Digər aktivlər | (35,835) | (7,882) |
| Digər öhdəliklər | 23,480 | (29,230) |
| **Əməliyyatlardan əldə olunmuş pul vəsaitləri** | **(392,703)** | **824,372** |
| Borclara görə faiz ödənişi | (960) | (1,330) |
| Qiymətli kağızlara görə faiz ödənişi | (72,000) | (72,000) |
| İcarə öhdəliklərinə görə ödəniş | (2,675) | (11,906) |
| **Əməliyyatlar üzrə daxil olan pul vəsaitləri** | **(630,715)** | **995,545** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Torpaq, tikilə və avadanlıqların alınması | (131,582) | - |
| **İnvestisiya fəaliyyətində istifadə olunmuş xalis pul vəsaitləri** | **(131,582)** | - |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm kapitalında artım | - | (600,000) |
| İcarə öhdəlikləri üzrə əsas məbləğdən ödəniş | (49,860) | (140,094) |
| Müddətli borclar üzrə ödəniş | (150,000) | (183,522) |
| Dividend ödənildi | - | - |
| Borc öhdəliklərindən daxilomalar | 695,000 | 207,039 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **495,140** | **(716,577)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım** | **(267,157)** | **278,968** |
| **İlin əvvəlinə olan pul pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **350,511** | **71,543** |
| **İlin sonuna olan pul pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **83,354** | **350,511** |

27 may 2022-ci il tarixində Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Yaşar Nəcəfov
Direktor vəzifəsini icra edən

Abid Süleymanov
Baş Mühasib



Scanned with CamScanner

## 1. Müəssisə və onun əsas fəaliyyəti

Cəmiyyət nizamnaməsi 2014-cü ilin 24 aprel tarixində 1701618531 (VÖEN) qeydiyyatı nömrəsi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyətin nizamnamə kapitalının miqdarı 2,054,000 (iki milyon əlli dörd min) manat təşkil edir.

Cəmiyyət iştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən olunmuşdur:

Məmmədov Tural Elmar oğlu-100%, 2,054,000 manat məbləğində və hər biri 100,00 (yüz) manat olmaqla 20,540 pay pul şəklində.

Cəmiyyətin müşahidə şurasının üzvləri Mahmudov Emil İlyaz oğlu, Hüseyov Rəsul Hüseyin oğlu və Xəlilov Sənan Əliövsət oğlu və qanuni təmsilçisi İsmayılov Xəyal Vahid oğlu olmuşdur.

Cəmiyyətin hüquqi ünvanı: AZ1095, Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, ev.68

Cəmiyyət Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada az gəlirli şəxslər, məcburi köçkün, qaçqınlara, demobilizə olan və müharibədən zərər çəkən digər şəxslərə, sahibkarlara, fiziki və hüquqi şəxslərə, o cümlədən az təminatlı icmaların ümumi rifah halının yaxşılaşdırılmasına çalışan maliyyə institutlarına qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.
Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC 23 iyun 2014-cü il tarixində BKT-25 saylı lisenziyaların mərkəzi reyesterinə daxil edilmişdir.

BOKT tərəfindən verilən kreditlər daşınar və daşınmaz əmlakın girovu, girov əmanəti, qarantiya zaminlik və qanunvericiliklə nəzərdə tutulmuş digər üsullarla təmin oluna bilər. Girov əmanəti yalnız Mərkəzi Bankın BOKT-na verilən lisenziyada bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər.



Scanned with CamScanner

**Təşkilatın əməliyyat mühiti**

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək inkişafı və sabitliyi hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Azərbaycan Respublikası neft ixrac edən ölkə kimi, neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün iqtisadiyyat neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər, milli valyutanın dəyərdən düşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başlamışdır ki, birbaşa neft istehsal edən ölkələrə, eləcə də Azərbaycana öz təsirini göstərdi. Qeyd olunan hadisələr də öz növbəsində neft sahəsindəki gəlirlərin və dolayısı ilə illik büdcə gəlirlərinin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələndi.

Neft qiymətlərindəki azalma və milli valyutanın əsas xarici valyutalara qarşı devalvasiyasının nəticəsi olaraq 2016-cı ildə kəskin iqtisadi böhrandan sonra hökumət uzunmüddətli iqtisadi sabitliyi və dayanıqlığı təmin etmək üçün islahatları sürətləndirmişdir. İnstitusional dəyişiklikləri əhatə edən iqtisadi islahatlara əsasən inflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı olmuş və xarici sektorda müsbət tendensiyalar yaranmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankı beynəlxalq valyuta bazarında rəqabət qabiliyyətini qoruyub saxlamaq məqsədi ilə, valyuta siyasətini dəyişərək 21 Fevral 2015-ci il tarixli mətbuat bəyanatı ilə Azərbaycan manatının dəyərinin ABŞ dollarına nisbətdə 34% və 21 Dekabr 2015-ci il tarixli mətbuat bəyanatı ilə 48% endirilməsi haqqında qərarını açıqladı. Manatın ABŞ dollarına münasibətdə tədricən dəyərdən düşməsi 2016-cı il ərzində davam etmiş və bütövlükdə il üzrə təxminən 23%-ə bərabər olmuşdur.



Scanned with CamScanner

2017-ci ilin 12 yanvar tarixindən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üzən məzənnə sisteminə sərbəst keçid imkanı üçün kommersiya banklarına tətbiq etdiyi 4% məzənnə dəhlizini ləğv etmişdir. 01 yanvar 2017-ci il tarixinə ABŞ dollarına nisbətdə manatın məzənnəsi 1.7707 AZN olmuş və il boyu dəyəri artaraq 31 dekabr 2017-ci il tarixinə 1.7001 AZN-də qərarlaşmışdır. 2018-ci il ərzində manatın dəyəri sabitləşmiş 31 dekabr 2018-ci il tarixində 1.7000 AZN-ə bərabər olmuşdur.

Bir sıra qeyri-sabit sistem risklərinə baxmayaraq, borcların ödənilməsi ilə yanaşı bank sektorunun sabitliyi də təmin edilmişdir. "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası fiziki şəxslərin borclarının ödənilməsi və vaxtı keçmiş kredit borclarının restrukturizasiyasına gətirib çıxarmış, eləcə də bank sektorunda problemli kreditlər məsələsinin həllini təmin etmişdir.

Neft qiymətlərində dəyişmələr neft və enerji sektorunun maliyyə və likvidlik mövqelərinə əhəmiyyətli dərəcədə təsirini göstərir, bu isə öz növbəsində həmin sahələrə kreditlərin ayrılmasındaki çətinliklərə, həmçinin mövcud borcların ödənilmə qabiliyyətinin aşağı enməsinə gətirib çıxara bilər. Müəssisələrin əməliyyat şəraitinin zəifləməsi rəhbərliyin pul vəsaitlərinin hərəkəti ilə bağlı proqnozlarına, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə qiymətləndirmə proseslərinə mənfi təsirini göstərməsi də ehtimal olunur. Mümkün əldə edilə bilən məlumatlar əsasında rəhbərlik dəyərsizləşmə üzrə qiymətləndirmələrində gələcək dövrün pul vəsaitlərinin hərəkəti ilə bağlı yenilənmiş təxminlərdən istifadə etmişdir.

Makro-iqtisadi amillərin gözlənilən dəyişiklikləri səbəbindən rəhbərlik bu dəyişikliklərin Təşkilatın əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü götürmək iqtidarında deyil. Rəhbərlik, mövcud şəraitdə Təşkilatın fəaliyyətinin davamlığını və inkişafını təmin etmək üçün bütün lazimi tədbirlərin görüldüyünü hesab edir.

Ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə 2018-ci ildə vergi qanunvericiliyinə bir neçə istiqamətdə çox mühüm dəyişikliklər layihəsi hazırlanmış və qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilmişdir. Bunlar sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və "kölgə iqtisadiyyatının" miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliyinin yüksəldilməsi kimi istiqamətləri əhatə edir.



Scanned with CamScanner

2019-cu il ərzində beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqini sabit saxlayıb. İyul ayında Moody's agentliyi Azərbaycanın bank sistemi üzrə proqnozunu "sabit"-dən "müsbət" səviyyəyə yüksəldib. Agentlik Azərbaycanın iqtisadi artımının və əvəzsiz dövlət dəstəyinin bank sektoruna müsbət proqnoz verilməsinə təsir edən əsas amillər hesab edir. Dünya Bankının "Doing Business 2020" hesabatına əsasən "Biznes qurmağın asanlığı" indeksi üzrə Azərbaycanın mövqeyi 34-ə yüksəlib. Təşkilatın rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Təşkilatın yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

## 2. Əsas uçot siyasəti

***Maliyyə hesabatlarının tərtibatının əsasları.*** Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıda göstərilir. 1 yanvar 2019-cu il tarixindən BMHS 16-ya (*İcarə*) keçidlə əlaqədar uçot siyasətində baş verən dəyişikliklərdən başqa, həmin uçot siyasəti başqa cür göstərilmədiyi hallarda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** *Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır. Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür.



Scanned with CamScanner

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. Təkrarlanan ədalətli dəyər qiymətləndirmələri maliyyə vəziyyəti haqqında hesabatda hər bir hesabat dövrünün sonunda mühasibat uçotu standartları ilə tələb edilən və ya icazə verilən qiymətləndirmələrdir.

***Əməliyyat xərcləri*** əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

***Amortizasiya olunmuş dəyər (AC)*** əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (o cümlədən təqdim olunma zamanı təxirə salınmış komissiyalar, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərində əks olunur.



Scanned with CamScanner

***Effektiv faiz metodu*** maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə alətlərinin ilkin tanınması.*** FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir.

İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("FVOCI") borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Təşkilatın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Təşkilatın həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları.*** Təşkilat maliyyə aktivlərini aşağıdakı kateqoriyalarda təsnifləşdirir: FVTPL, FVOCI və AC. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Təşkilatın biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.



Scanned with CamScanner

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model.*** Biznes model Təşkilatın pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Təşkilatın məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və FVTPL kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Təşkilatın həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Təşkilatın nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri.*** Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Təşkilat nağd pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI təhlili).

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. SPPI təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

***Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi.*** Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada - biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Təşkilat cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.



Scanned with CamScanner

***Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat.*** Təşkilat amortizasiya olunmuş dəyərlə və FVOCI kateqoriyasında ölçülmüş borc alətləri, eləcə də kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələrindən yaranan risklər üzrə gözlənilən kredit zərərlərini (ECL) proqnozlar əsasında qiymətləndirir. Təşkilat hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və kredit zərərləri üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üzrə gözlənilən kredit zərərləri üçün maliyyə vəziyyəti haqqında hesabatda öhdəliyin tərkibində ayrıca ehtiyat tanınır. FVOCI kateqoriyasında qiymətləndirilən borc alətlərinin amortizasiya olunmuş dəyərində dəyişikliklər gözlənilən kredit zərərləri üçün ehtiyat çıxılmaqla mənfəət və ya zərərdə tanınır. Balans dəyərindəki digər dəyişikliklər sair məcmu gəlirlərdə FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri üzrə "zərər çıxılmaqla gəlir" kimi tanınır.

Təşkilat maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsnifləşdirilir. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün gözlənilən kredit zərərləri ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir.

Təşkilat ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("SICR") baş verdiyini müəyyən edərsə, aktiv 2-ci Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla qiymətləndirilir. Təşkilat maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərsə aktiv 3-cü Mərhələyə köçürülür həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri kimi qiymətləndirilir.



Scanned with CamScanner

Kredit və istifadə olunmamış kredit xəttindən ibarət olan kredit kartları kimi müəyyən maliyyə alətləri üzrə istisna olaraq kredit zərərləri Təşkilatın kredit riskinə məruz qaldığı müddət, yəni belə kredit zərərlərinin kredit riskinin idarə edilməsi tədbirləri vasitəsilə azaldılmasına qədər olan dövr ərzində (bu dövr kredit müqaviləsinin maksimum müddətindən artıq olsa belə) qiymətləndirilir. Bu, kreditin ödənilməsinin tələb edilməsi və istifadə olunmamış kredit xəttinin ləğv edilməsinə görə kredit zərərinə məruz qalan məbləğin müqavilədə nəzərdə tutulan bildiriş müddəti ilə məhdudlaşmaması ilə əlaqədardır.

***Maliyyə aktivlərinin silinməsi.*** Maliyyə aktivlərini bərpa etmək üçün Təşkilatın bütün praktiki imkanları tükəndikdə və Təşkilat belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Təşkilat müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması.*** Təşkilat aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Təşkilat maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

***Maliyyə aktivlərinin modifikasiyası.*** Təşkilat bəzən maliyyə aktivləri üzrə müqavilə şərtlərinə yenidən baxır və ya onları dəyişdirir. Bu zaman Təşkilat aşağıdakı amilləri nəzərə alaraq, müqavilə üzrə pul axınlarının modifikasiyasının əhəmiyyətli olduğunu qiymətləndirir: aktivin risk profilinə əhəmiyyətli dərəcədə təsir göstərən hər hansı yeni müqavilə şərtləri (məsələn, mənfəətdə pay və ya kapital üzrə gəlirlilik), faiz dərəcəsindəki əhəmiyyətli dəyişikliklər, valyutada dəyişikliklər, aktivlə bağlı kredit riskinə əhəmiyyətli dərəcədə təsir göstərən yeni və ya əlavə kredit təminatının yaranması və ya borcalanın maliyyə çətinliyi olduqda kreditin müddətinin əhəmiyyətli dərəcədə artırılması.



Scanned with CamScanner

Yeni şərtlər əhəmiyyətli dərəcədə fərqləndikdə əvvəlki aktiv üzrə pul axınlarını əldə etmək hüququ başa çatdığına görə Təşkilat əvvəlki maliyyə aktivinin tanınmasını dayandırır və yeni aktivi ədalətli dəyərlə tanıyır. Müqavilə şərtlərinə yenidən baxılması tarixi növbəti dəyərsizləşmənin hesablanması, o cümlədən kredit riskinin əhəmiyyətli dərəcədə artması faktının müəyyən edilməsi üçün ilkin tanınma tarixi hesab edilir.

Bundan əlavə, Təşkilat yeni kreditin və ya borc alətinin SPPI meyarına uyğunluğunu qiymətləndirir. Tanınması dayandırılmış ilkin aktivin balans dəyəri ilə əhəmiyyətli dərəcədə modifikasiya edilmiş yeni aktivin ədalətli dəyəri arasındakı hər hansı fərq (fərqin mahiyyəti səhmdarlarla həyata keçirilən kapital əməliyyatına aid edilmədiyi təqdirdə) mənfəət və ya zərərdə tanınır.

Müqavilə şərtlərinə qarşı tərəfin maliyyə çətinlikləri və əvvəlcədən razılaşdırılmış ödənişləri həyata keçirə bilməməsi səbəbindən yenidən baxılarsa, Təşkilat aktiv üzrə risklərin və faydaların müqavilə şərtlərinin dəyişdirilməsi nəticəsində əhəmiyyətli dərəcədə fərqləndiyini müəyyən etmək üçün aktivlər üzrə ilkin və düzəliş edilmiş gözlənilən nağd pul axınlarını müqayisə edir. Risklər və faydalar dəyişmədikdə, modifikasiya edilmiş aktiv ilkin aktivdən əhəmiyyətli dərəcədə fərqlənmir və bu modifikasiya tanınmanın dayandırılmasına gətirib çıxarmır. Təşkilat modifikasiya edilmiş müqavilə üzrə pul axınlarını ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırmaqla, ümumi balans dəyərini yenidən hesablayır və modifikasiya nəticəsində yaranan gəlir və ya zərəri mənfəət və ya zərərdə tanıyır.

Mümkün olduqda Təşkilat girova yiyələnmək əvəzinə kredit şərtlərini dəyişdirməyə çalışır. Buna müqavilə ilə nəzərdə tutulmuş ödəniş müddətlərinin uzadılması və yeni kredit şərtlərinin razılaşdırılması daxildir.

Bu restrukturizasiyanın uçot qaydası aşağıda təqdim olunur:

- Kreditin valyutası dəyişmişdirsə, köhnə kredit uçotdan çıxarılır və yeni kredit tanınır.
- Əgər kredit şərtlərinin dəyişməsi borcalanın maliyyə çətinlikləri ilə bağlı deyilsə, yeni şərtlər müəyyən edildikdən sonra, kredit artıq vaxtı keçmiş hesab olunmur.
- Əgər kredit şərtlərinin dəyişməsi borcalanın maliyyə çətinlikləri ilə bağlıdırsa və şərtlər dəyişdirildikdən sonra kredit dəyərsizləşərsə, Təşkilat ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə diskontlaşdırılmış yeni pul vəsaitlərinin hərəkətinin cari dəyəri ilə şərtlər dəyişdirildikdən əvvəl balans dəyəri arasındakı fərqi dövr üzrə ehtiyat ayırmalarında tanıyır. Kreditin şərtləri dəyişdirildikdən sonra kredit dəyərsizləşmirsə, Təşkilat effektiv faiz dərəcəsini yenidən hesablayır.



Scanned with CamScanner

Bütün meyarların qarşılanması və gələcək ödənişlərin mümkünlüyündən əmin olmaq məqsədilə Təşkilatın rəhbərliyi restrukturizasiya edilmiş kreditləri daim nəzərdən keçirir. Belə kreditlər fərdi və ya ümumi qaydada dəyərsizləşməyə məruz qalmaqda davam edir və onların ödənilən dəyəri kredit üzrə ilkin və ya cari effektiv faiz dərəcəsi istifadə etməklə hesablanır.

***Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları.*** Maliyyə öhdəlikləri aşağıdakılar istisna olmaqla, sonradan amortizasiya olunmuş dəyərlə təsnifləşdirilir: (i) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə öhdəlikləri və; (ii) maliyyə zəmanəti müqavilələri və kredit öhdəlikləri.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması.*** Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Təşkilat ilə onun əvvəlki kreditorları arasında şərtləri əhəmiyyətli dərəcədə fərqli olan borc alətlərinin mübadiləsi, eləcə də mövcud maliyyə öhdəliklərinin şərtlərinin əhəmiyyətli dərəcədə dəyişdirilməsi ilkin maliyyə öhdəliyinin icrası və yeni maliyyə öhdəliyinin tanınması kimi uçota alınır. Şərtlər o halda əhəmiyyəlti dərəcədə dəyişmiş hesab olunur ki, alınmış və ilkin effektiv faiz metodu ilə dikontlaşdırılmış bütün ödənilmiş komissiyalar daxil olmaqla, yeni şərtlərə əsasən nağd pul axınlarının diskontlaşdırılmış cari dəyəri ilkin maliyyə öhdəliyi üzrə qalan nağd pul axınlarının diskontlaşdırılmış cari dəyərindən ən azı 10% fərqlənsin.

Bundan əlavə, alətin ifadə edildiyi valyuta, faiz dərəcəsinin növündə dəyişilkiklər, alətin konvertasiyası ilə bağlı yeni şərtlər və kredit üzrə xüsusi şərtlərdə dəyişikliklər kimi digər keyfiyyət amilləri nəzərə alınır. Borc alətlərinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınarsa, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin icrası üzrə mənfəət və ya zərərdə tanınır.
Borc alətinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınmadıqda, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin balans dəyərinə düzəliş kimi əks etdirilir və modifikasiya edilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya edilir.

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvvəlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər balans dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə, mənfəət və ya zərərdə əks etdirilir.



Scanned with CamScanner

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, banklardakı cari hesablar daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir.

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Müştərilərə verilmiş kreditlər və avanslar müştərinin kreditini almaq və ya müştəriyə kredit vermək məqsədilə Təşkilat tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Biznes model və pul axınlarının xüsusiyyətini nəzərə alaraq, Təşkilat müştərilərə verilmiş kreditləri və avansları aşağıdakı kateqoriyalardan birinə təsnifləşdirir: (i) AC: kreditlər müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanıldıqda, həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə və könüllü olaraq FVTPL kateqoriyasına aid edilmədikdə və (ii) FVTPL: kreditlər SPPI, AC və ya FVOCI kateqoriyasında qiymətləndirmə meyarlarına uyğun olmadıqda FVTPL kateqoriyasında ölçülür. Dəyərsizləşmə üzrə ehtiyatlar gözlənilən kredit zərərləri üzrə proqnoz modellərə əsasən müəyyən edilir.

***Vergilər.*** Hazırkı maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Lakin həmin və ya başqa dövrdə sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan əməliyyatlara aid olan vergilər sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır. Cari il üzrə mənfəət vergisi xərci/gəliri Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq hesablanır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə keçmiş illərin vergi zərərləri və maliyyə hesabatlarında aktiv və öhdəliklərin vergi bazası və balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün hesablanır.

İlkin tanınma zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.



Scanned with CamScanner

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

***Əmlak və avadanlıqlar.*** Avadanlıqlar, gündəlik xidmət xərcləri istisna olmaqla, yığılmış köhnəlməni və hər hansı tanınmış dəyərsizləşmə zərərini çıxmaqla ilkin dəyərlə tanınır. Tanınma meyarına uyğun gələndə, avadanlıqların bir hissəsinin əvəz edilməsi xərcləri yarandığı zaman həmin dəyərə daxil edilir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcudluğunu qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə kapitalda göstərilən əvvəlki ilin yenidən qiymətləndirmə ehtiyatından artıq olan hissəsi qədər tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir.

Aktivlərin silinməsindən yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə sair gəlirin tərkibində tanınır. Əsas vəsait qrupları üzrə amortizasiya müddəti cədvəldə əks olunub:

| Əsas vəsait qrupu | Faydalı istifadə müddəti (il) |
|---|---|
| Mebel və avadanlıqlar | 5 |
| Kompyuter və ofis avadanlığı | 5 |
| Nəqliyyat vasitələri | 4 |
| Qeyri-maddi aktivlər | 10 |
| Bina-tikili | 7% |

Aktivlərin qalıq dəyəri, istifadə müddəti və amortizasiya metodlarına hər maliyyə ilinin sonunda yenidən baxılır və lazım olduqda dəyişdirilir.

Təmir və rekonstruksiya xərcləri çəkildikcə xərcə silinir və kapitallaşdırılmalı olduğu hallar istisna olmaqla, digər əməliyyat xərclərinə daxil edilir.



Scanned with CamScanner

***Qeyri-maddi aktivlər.*** Qeyri-maddi aktivlər kompüter proqramlarından və lisenziyalardan ibarətdir. Ayrıca alınmış qeyri-maddi aktivlər ilk olaraq ilkin dəyərlə tanınır. İlkin tanımadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiya və yığılmış dəyərdən düşmə zərərlərini çıxmaqla ilkin dəyərlə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud və ya qeyri-müəyyən müddətlər kimi müəyyən edilmişdir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərə 10 illik istifadə müddəti üzrə amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərdən düşmə əlamətləri mövcud olanda dəyərdən düşmə baxımından qiymətləndirmə aparılır. Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlərlə bağlı amortizasiya müddəti və metodları ən azından hər maliyyə ilinin sonunda yenidən baxılır.

***Müştərilərə və kredit təşkilatlarına ödəniləcək vəsaitlər.*** Buraxılmış maliyyə alətləri və ya onların komponentləri o halda öhdəlik kimi təsnif edilir ki, müqavilə razılaşması Təşkilatın üzərinə aşağıdakı öhdəliklərdən birinin qoyulması ilə nəticələnsin: sahibə pul vəsaitləri və ya öhdəliyi müəyyən məbləğdə pul vəsaitinin və ya digər maliyyə aktivinin müəyyən sayda xüsusi kapital alətlərinə mübadilə etməkdən fərqli olan yolla ödəmək. Belə alətlərə müştəri hesabları, eləcə də fiziki və hüquqi şəxslər, dövlət və kredit təşkilatlarının müddətli depozitləri daxildir. Bu məbləğlər qeyri-törəmə öhdəlikləri əks etdirir və amortizasiya olunmuş dəyərlə qeydə alınır.

***Ehtiyatlar.*** Öhdəliklər və məsrəflər üzrə ehtiyatlara qeyri-müəyyən müddət və ya məbləğə malik olan öhdəliklər daxildir. Təşkilat keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, bu öhdəliklərin yerinə yetirilməsi üçün iqtisadi resursların sərf olunmasının ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ehtimal edilə bildikdə ehtiyatlar uçota alınır.

***Nizamnamə kapitalı.*** Adi səhmlər nizamnamə kapitalı kimi təsnif edilir. Biznesin birləşməsi istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olaraq üçüncü tərəflərə ödənişlərə çəkilən xərclər kapitalın tərkibində həmin emissiya nəticəsində əldə edilmiş məbləğin azalması kimi əks etdirilir. Əldə edilmiş vəsaitlərin ədalətli dəyərinin buraxılmış səhmlərin nominal dəyərindən artıq olan hissəsi əlavə kapital kimi əks etdirilir.

***Dividendlər.*** Dividendlər elan olunub təsdiqləndiyi dövrdə kapitalda qeydə alınır. Hesabat dövründən sonra, lakin maliyyə hesabatlarının təsdiqlənməsindən əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat tarixindən sonrakı hadisələr" qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Təşkilatın yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir.



Scanned with CamScanner

***Şərti aktivlər və öhdəliklər.*** Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal edilləndə maliyyə hesabatlarında açıqlanır.

***Gəlir və xərclərin tanınması.*** Gəlirlər Təşkilat tərəfindən iqtisadi səmərənin əldə edilməsi ehtimal edildikdə və xərclər etibarlı şəkildə ölçülə bildikdə tanınır.

***Faiz və oxşar gəlir və xərclər.*** FVTPL kateqoriyasına aid olan maliyyə alətləri istisna olmaqla, bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, əməliyyat xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və əməliyyat sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir.

Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Təşkilat tərəfindən alınmış komissiya haqları, Təşkilatın xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Təşkilat kreditlərin verilməsi üzrə öhdəlikləri FVTPL kateqoriyasına aid olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Faiz gəlirləri dəyərsizləşmiş maliyyə aktivləri (3-cü Mərhələ) istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Belə aktivlər üzrə faiz gəlirini hesablayarkən dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aktivin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilir.

***Haqq və komissiya gəlirləri.*** Təşkilat haqq və komissiya gəlirlərini müştərilərə göstərdiyi xidmətlərdən əldə edir. Haqlardan əldə edilən gəlir aşağıdakı iki kateqoriyaya bölünə bilər:



Scanned with CamScanner

- *Müəyyən zaman anında göstərilmiş xidmətlərdən komissiya gəliri*

Haqq və komissiya gəlirləri müştərinin Təşkilat tərəfindən göstərilən xidmətlərin faydasını eyni anda qəbul və istifadə etdiyi müəyyən dövr ərzində düz xətt metodu ilə tanınır. Müəyyən müddətdə göstərilmiş xidmətlərdən komissiya gəliri həmin müddət ərzində hesablanır. Bu haqlara komissiya gəliri daxildir. Kreditlərin verilməsi öhdəlikləri ilə bağlı haqlar (bu kreditlərin istifadə edilməsi ehtimalı yüksək olanda) və kreditlərlə bağlı digər haqlar (hər hansı əlavə xərclərlə birlikdə) gələcək dövrlərə aid edilir və kredit üzrə faktiki faiz dərəcəsinə düzəliş kimi tanınır.

- *Əməliyyat xidmətlərinin göstərilməsindən komissiya gəliri*

Haqq və komissiya gəlirləri Təşkilat öz icra öhdəliyini yerinə yetirdiyi anda, adətən müvafiq əməliyyatı həyata keçirdikdən sonra tanınır. Alınmış və ya alınacaq haqq və komissiya məbləği fərqli icra öhdəlikləri kimi müəyyən edilmiş xidmətlər üzrə əməliyyat qiymətini əks etdirir. Üçüncü tərəf adından hər hansı əməliyyat və ya danışıqlarda iştirak müvafiq əməliyyat başa çatdıqdan sonra tanınır. Müəyyən gəlirlilik göstəriciləri ilə bağlı olan haqlar və ya haqqın komponentləri müvafiq meyarlar yerinə yetirildikdən sonra tanınır.

***Xarici valyutaların alqı-satqısı və konvertasiyası.*** Təşkilat xarici valyutaların alqı-satqısı və mübadiləsi üzrə əməliyyatları kassa və bank hesabları vasitəsilə həyata keçirir. Əməliyyatlar Bank tərəfindən müəyyən edilən və əməliyyat tarixlərində rəsmi məzənnədən fərqli olan məzənnə ilə aparılır. Rəsmi məzənnə ilə Bankın müəyyən etdiyi məzənnə arasındakı fərqlər müəyyən icra öhdəliyi yerinə yetirildiyi anda xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir kimi tanınır.

***Xarici valyutanın çevrilməsi.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Təşkilatın əməliyyat və təqdimat valyutası olan Azərbaycan manatı ilə ("AZN") təqdim edilir. Xarici valyutada aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə funksional valyutada qeydə alınır. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixinə qüvvədə olan məzənnədən istifadə etməklə funksional valyutaya yenidən çevrilir. Xarici valyutada olan əməliyyatların çevrilməsindən yaranan bütün gəlirlər və zərərlər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə xalis gəlir (zərər) sətir maddəsi kimi tanınır. Xarici valyuta ilə olan və maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr ilkin əməliyyatların tarixlərinə mövcud olan məzənnə ilə çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir.



Scanned with CamScanner

Xarici valyuta ilə aparılan əməliyyatın müqavilə üzrə valyuta məzənnəsi ilə Mərkəzi Bankın əməliyyat tarixində qüvvədə olan məzənnəsi arasında fərqlər xarici valyuta ilə dilinq əməliyyatları üzrə gəlir/zərərin tərkibində əks etdirilir.

31 dekabr tarixinə Təşkilat hazırkı maliyyə hesabatlarının hazırlanması üçün aşağıdakı rəsmi xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | 2021 | 2020 |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 Avro | 1.9265 AZN | 2.0890 AZN |

## 3. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Təşkilat maliyyə hesabatlarında uçota alınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi.*** Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt anlayışı, kredit riskinin əhəmiyyətli dərəcədə artması (SICR), defolt ehtimalı (PD), defolta məruz qalan dəyər (EAD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD), eləcə də makroiqtisadi ssenarilər. Təşkilat gözlənilən kredit zərərləri üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir. ECL səviyyəsinə uyğun olan proqnoz fərziyyələr və onların çəki əmsalları əhəmiyyətli olmamışdır.



Scanned with CamScanner

***Maliyyə aktivlərinin modifikasiyası.*** Maliyyə aktivləri müqavilə şərtlərinə uyğun olaraq modifikasiya edildikdə (məs: onların şərtlərinə yenidən baxıldıqda), Təşkilat bu modifikasiyanın əhəmiyyətli olub olmadığını və ilkin aktivin tanınmasının dayandırılmasına və yeni aktivin ədalətli dəyərlə tanınmasına gətirib çıxarmalı olub-olmadığını qiymətləndirir. Bu qiymətləndirmə əsasən müvafiq uçot siyasətində qeyd olunan keyfiyyət amillərinə əsaslanır və əhəmiyyətli mülahizələrin tətbiq olunmasını tələb edir. Xüsusilə, Təşkilat şərtlərinə yenidən baxılmış dəyərsizləşmiş kredit müqavilələrinin tanınmasının dayandırılması, eləcə də yeni tanınmış kreditlərin ilkin tanınma zamanı dəyərsizləşmiş kreditlər kimi nəzərdən keçirilməsi kimi məsələlərə dair qərar qəbul edərkən mülahizə irəli sürür.
Tanınmanın dayandırılması zərurəti ilə bağlı qərar belə modifikasiya nəticəsində risk və faydaların, yəni, gözlənilən nağd pul axınlarının (müqavilədə nəzərdə tutulmayan nağd pul axınları) dəyişməsindən asılıdır. Rəhbərlik belə kreditlərin modifikasiyası nəticəsində risk və faydaların dəyişmədiyini və buna görə də mahiyyət etibarilə bütün bu dəyişikliklərin və kreditlərin tanınmasının dayandırılmadığını və dəyərsizləşmiş kreditlər mərhələsindən yenidən təsnifləşdirilmədiyini müəyyən etmişdir.

***Maliyyə aktivlərinin silinmə siyasəti.*** Maliyyə aktivlərini bərpa etmək üçün Təşkilatın bütün praktiki imkanları tükəndikdə və Təşkilat belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Tənzimləyici orqanların ümidsiz maliyyə aktivləri ilə bağlı müəyyən etdiyi meyarlara cavab verən maliyyə aktivləri üçün 100% ehtiyat tanınır. Maliyyə aktivlərinin silinməsi prosesi normativ tələblərə və təşkilatdaxili qaydalara uyğun həyata keçirilir. Silinmiş bütün maliyyə aktivləri normativ tələbə uyğun olaraq 5 il balansdankənar hesablarda uçota alınır. Əvvəllər silinmiş məbləğlərin qaytarılması kredit zərərləri üzrə ehtiyatı azaldır.

***Kreditlərlə bağlı öhdəliklər.*** Bu alətlərin əsas məqsədi lazım olduqda müştəriləri vəsaitlərə təmin etməkdir. Zəmanətlər və rezervli akkreditivlər müştəri üçüncü tərəflər qarşısında öhdəliklərini yerinə yetirə bilmədikdə Təşkilatın ödənişlər edəcəyi ilə bağlı geri çağırılmayan öhdəlikləri əks etdirir və kreditlər ilə eyni risk səviyyəsi daşıyır.



Scanned with CamScanner

Kreditlərin təqdim edilməsi üzrə öhdəliklərə kreditlərin verilməsi üçün rəhbərlik tərəfindən təsdiqlənməmiş məbləğlərin istifadə edilməyən hissəsi daxildir. Kreditlərin verilməsi üzrə öhdəliklər ilə əlaqədar Təşkilat istifadə edilməmiş məbləğlərin istifadə edilməli olduğu halda, potensial olaraq istifadə edilməmiş öhdəliklərin ümumi məbləğinə bərabər məbləğdə zərərin yaranması riskinə məruz qalır. Lakin, kreditlərin verilməsi üzrə öhdəliklərin böyük hissəsi müştərilərin ödəmə qabiliyyəti ilə bağlı müəyyən tələblərə əməl etməsindən asılı olduğuna görə, ehtimal edilən zərərlərin məbləği istifadə edilməmiş öhdəliklərin ümumi məbləğindən azdır.

Adətən uzunmüddətli öhdəliklər qısamüddətli öhdəliklər ilə müqayisədə daha yüksək kredit riskinə malik olduğu üçün Təşkilat kreditlərlə bağlı öhdəliklərin ödəmə müddətinə qədər qalan müddətə nəzarət edir.

***Sığorta.*** Təşkilat hazırda səhvlərdən və ya təhriflərdən irəli gələn öhdəliklərlə əlaqədar sığorta təminatı almamışdır. Hazırda məsuliyyətin sığortalanması Azərbaycanda geniş yayılmayıb.



Scanned with CamScanner

## 4. Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqların hərəkəti aşağıdaki kimi olmuşdur:

| *(Azərbaycan Manatı ilə)* | Təmir | Mebel və avadanlıqlar | Nəqliyyat vasitələri | Kompüter və avadanlıqlar | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2019-cu il** | **22,391** | **53,851** | **71,500** | **52,688** | **200,430** |
| Əlavələr | - | - | - | - | - |
| Silinmələr | - | (43,458) | (50,000) | (17,838) | (111,296) |
| **31 dekabr 2020-ci il** | **22,391** | **10,393** | **21,500** | **34,850** | **89,134** |
| Əlavələr | - | 58,839 | 26,048 | 70,891 | 155,778 |
| Silinmələr | - | (9,586) | (14,608) | - | (24,194) |
| **31 dekabr 2021-ci il** | **22,391** | **59,646** | **32,940** | **105,741** | **220,718** |

Yığılmış amortizasiyanın hərəkəti aşağıdaki kimi olmuşdur.

| *(Azərbaycan Manatı ilə)* | Təmir | Mebel və avadanlıqlar | Nəqliyyat vasitələri | Kompüter və avadanlıqlar | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2019-cu il** | **(6,065)** | **(24,537)** | **(37,694)** | **(28,353)** | **(96,649)** |
| Amortizasiya xərci | (1,194) | (25,257) | (24,944) | (11,176) | (62,571) |
| Silinmələr | - | 43,458 | 50,000 | 17,838 | 111,296 |
| **31 dekabr 2020-ci il** | **(7,259)** | **(6,336)** | **(12,638)** | **(21,691)** | **(47,924)** |
| Amortizasiya xərci | (1,567) | (13,068) | (9,608) | (15,440) | (39,683) |
| Silinmələr | - | - | - | - | - |
| **31 dekabr 2021-ci il** | **(8,826)** | **(19,404)** | **(22,246)** | **(37,131)** | **(87,607)** |

| **Xalis balans dəyəri** | Təmir | Mebel və avadanlıqlar | Nəqliyyat vasitələri | Kompüter və avadanlıqlar | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2019-cu il** | 16,326 | 29,314 | 33,806 | 24,335 | 103,781 |
| **31 dekabr 2020-ci il** | 15,132 | 4,057 | 8,862 | 13,159 | 41,210 |
| **31 dekabr 2021-ci il** | 13,565 | 40,242 | 10,694 | 68,610 | 133,111 |



Scanned with CamScanner

## 5. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər üzrə hərəkət aşağıdakı kimi olmuşdur:

| *(Azərbaycan Manatı ilə)* | Cəmi |
|---|---|
| **31 dekabr 2019-cu il** | **18,348** |
| Əlavələr | - |
| Silinmələr | - |
| **31 dekabr 2020-ci il** | **18,348** |
| Əlavələr | - |
| Silinmələr | - |
| **31 dekabr 2021-ci il** | **18,348** |

Yığılmış amortizasiyanın hərəkəti aşağıdakı kimi olmuşdur.

| *(Azərbaycan Manatı ilə)* | Cəmi |
|---|---|
| **31 dekabr 2019-cu il** | **(7,393)** |
| Amortizasiya xərci | (1,186) |
| Silinmələr | - |
| **31 dekabr 2020-ci il** | **(8,579)** |
| Amortizasiya xərci | (1,836) |
| Silinmələr | - |
| **31 dekabr 2021-ci il** | **(10,415)** |

| | |
|---|---|
| **Xalis balans dəyəri** | |
| **31 dekabr 2019-cu il** | **10,955** |
| **31 dekabr 2020-ci il** | **9,769** |
| **31 dekabr 2021-ci il** | **7,933** |



Scanned with CamScanner

## 6. Pul vəsaitləri və onların ekvivalentləri

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Kassada olan nəğd pul | 168 | 13,463 |
| Banklarda olan cari hesablar | 83,186 | 337,048 |
| **Cəmi** | **83,354** | **350,511** |

## 7. Müştərilərə verilmiş kreditlər və avanslar

Müştərilərə verilmiş kreditlər və avanslar aşağıdakılardan ibarətdir:

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avansların ümumi balans dəyəri | 2,329,053 | 1,958,158 |
| Kredit zərərləri üzrə ehtiyat çıxılmaqla | (646,253) | (745,203) |
| Hesablanmış alınacaq faizlər | 222,602 | 240,380 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **1,905,402** | **1,453,335** |

| | **31 dekabr 2021-ci il tarixinə Kredit zərərləri üzrə ehtiyatlar** | | | |
|---|---|---|---|---|
| *(Azərbaycan Manatı)* | **1-ci Mərhələ (12 aylıq ECL)** | **2-ci Mərhələ (SICR zamanı bütov müddət üçün ECL)** | **3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)** | **Cəmi** |
| 30 gündən az gecikən kreditlər | 1,691,641 | - | - | **1,691,641** |
| 30-90 gün arası gecikən kreditlər | - | 54,718 | - | **54,718** |
| 90 gündən çox gecikən kreditlər | - | - | 805,295 | **805,295** |
| **Ümumi balans dəyəri** | **1,691,641** | **54,718** | **805,294** | **2,551,653** |
| **Kredit zərərləri üzrə ehtiyat** | - | **(10,664)** | **(635,588)** | **(646,252)** |
| **Balans dəyəri** | **1,691,641** | **44,054** | **169,707** | **1,905,402** |



Scanned with CamScanner

| | 31 dekabr 2020-ci il tarixinə Kredit zərərləri üzrə ehtiyatlar | | | |
|---|---|---|---|---|
| *(Azərbaycan Manatı)* | 1-ci Mərhələ (12 aylıq ECL) | 2-ci Mərhələ (SICR zamanı bütov müddət üçün ECL) | 3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL) | Cəmi |
| 30 gündən az gecikən kreditlər | 1,155,738 | - | - | 1,155,738 |
| 30-90 gün arası gecikən kreditlər | - | 42,760 | - | 42,760 |
| 90 gündən çox gecikən kreditlər | - | - | 1,000,040 | 1,000,40 |
| **Ümumi balans dəyəri** | 1,155,738 | 42,760 | 1,000,040 | 2,198,538 |
| **Kredit zərərləri üzrə ehtiyat** | (11,557) | (2,138) | (731,508) | (745,203) |
| **Balans dəyəri** | 1,144,181 | 40,622 | 268,532 | 1,453,335 |

## 8. Digər qısamüddətli aktivlər

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Gələcək dövrün xərcləri | 3,755 | 713 |
| Qabaqcadan ödənişlər | 21,189 | - |
| Vergi orqanları ilə hesablaşmalar | 2,309 | 5,844 |
| Digər debitorlar | 34,412 | 19,275 |
| **Cəmi digər aktivlər** | 61,665 | 25,832 |



Scanned with CamScanner

## 9. Aktivdən istifadə hüququ və icarə öhdəliyi

*(Azərbaycan Manatı ilə)*

| | |
|---|---|
| **İlkin dəyər** | |
| **01 yanvar 2021** | **214,919** |
| Əlavələr | 87,396 |
| **31 dekabr 2021** | **302,315** |
| | |
| **Yığılmış amortizasiya** | |
| **01 yanvar 2021** | **(172,441)** |
| Amortizasiya | (47,872) |
| **31 dekabr 2021** | **(220,313)** |
| | |
| **Xalis dəyər** | |
| **01 yanvar 2021** | **42,478** |
| **31 dekabr 2021** | **82,002** |
| | |
| **01 yanvar 2021** | **44,425** |
| **Pul vəsaitlərin hərəkəti** | |
| Ödəniş | (49,860) |
| Faiz ödənilib | (2,675) |
| **Qeyri pul vəsaitlərin hərəkəti** | |
| Yeni icarələr | 87,396 |
| Faiz xərci | 2,675 |
| **31 dekabr 2021** | **81,961** |



Scanned with CamScanner

## 10. Təxirə salınmış vergi aktivləri

*(a)Mənfəət vergisi gəliri üzrə komponentlər*

Mənfəət vergisi xərci aşağıdakilardan ibarətdir:

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Cari mənfəət vergisi | 40,333 | 22,670 |
| Təxirə salınmış mənfəət vergisi | 11,475 | 104,486 |
| **İl üzrə mənfəət vergisi xərci** | **51,808** | **127,156** |

*(b) Vergi xərcləri ilə müvafiq vergi dərəcəsinə vurulmuş mənfəət və ya zərərin üzləşdirilməsi*

Cəmiyyət gəlirlərinin əsas hissəsinə 20% mənfəət vergisi tətbiq edilir. Nəzərdə tutulan və faktiki tətbiq edilən vergi hesablamalarının üzləşdirilməsi aşağıda göstərilir:

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | (259,037) | (637,359) |
| Qüvvədə olan vergi dərəcəsi ilə nəzəri vergi (20%) | 51,808 | 127,472 |
| Vergiyə cəlb olunmayan xərclər | - | (316) |
| **İl üzrə mənfəət vergisi xərci** | 51,808 | 127,156 |

*(c) Müvəqqəti fərqə görə təhlil edilmiş təxirə salınmış vergilər*

MHBS ilə Azərbaycan Respublikasının vergi qanuvericiliyinin fərqləri maliyyə hesabatlığı məqsədləri üçün aktiv və öhdəliklərin qalıq dəyəri ilə vergi bazaları arasında müvəqqəti fərqləri yaradır.

Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi təsiri aşağıda verilmiş və 20% dərəcəsi ilə qeydə alınmışdır.



Scanned with CamScanner

| *(Azərbaycan Manatı ilə)* | 1yanvar 2021 | Mənfəət və ya zərərə daxil edilmiş | 31 dekabr 2021 |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi təsiri** | | | |
| Əmlak və avadanlıqlar | 8,534 | - | 8,534 |
| Qeyri-maddi aktivlər | 48 | - | 48 |
| Vəsaitin istifadə hüququ | (8,496) | (7,904) | (16,400) |
| Uzunmüddətli kreditlər | 89,435 | 9,348 | 98,783 |
| İcarə öhdəlikləri | 8,885 | 7,507 | 16,392 |
| Digər öhdəliklər | 6,080 | 2,524 | 8,604 |
| Keçən ilin vergi itkisi | 22,670 | 40,333 | 63,003 |
| **Xalis təxirə salınmış vergi aktivi/öhdəliyi** | **127,156** | **51,808** | **178,964** |

## 11. Qiymətli kağızlar

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Qiymətli kağızlar | 400,000 | 400,000 |
| Hesablanmış ödəniləcək faizlər | 5,400 | 5,400 |
| **Cəmi qiymətli kağızlar** | **405,400** | **405,400** |

Qiymətli kağızlar AZ2001020158 dövlət qeydiyyat nömrəli təmin edilməmiş, 400 ədəd olan, nominal dəyəri 1,000 AZN təşkil edən, 18 faizli istiqrazlardan ibarətdir.

## 12. Borc alınmış vəsaitlər

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Əsas məbləğ | 568,497 | 23,497 |
| Faiz məbləği | 3,373 | 20 |
| **Cəmi borc alınmış vəsaitlər** | **571,870** | **23,517** |

Borc alınmış vəsaitlər Azərbaycan Respublikasının Mərkəzi Bankına (23,497 AZN), VTB Banka (200,000 AZN) və Xalq Banka (345,000) olan borclardan ibarətdir.



Scanned with CamScanner

## 13. Digər öhdəliklər

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Əmək haqqı | 10,395 | - |
| DSMF | 11,512 | 38 |
| Vergi öhdəlikləri | 1,445 | - |
| Digər kreditorlar | 31,983 | 31,817 |
| **Cəmi digər öhdəliklər** | **55,335** | **31,855** |

## 14. Nizamnamə kapitalı

| *(Azərbaycan Manatı ilə)* | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| **Nizamnamə kapitalı** | **2,054,000** | **2,054,000** |

16 iyun 2010-cu il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bank tərəfindən Bank olmayan Kredit Təşkilatlarının Prudensial Tənzimlənməsinə dair təsdiq edilmiş qaydalara əsasən Bank olmayan Kredit Təşkilatlarının minimal nizamnamə kapitalı 300 min manatdan aşağı olmamalıdır və hesabat tarixinə Təşkilat bu tələbi tam yerinə yetirir. Şirkətin nizamnamə kapitalı Məmmədov Tural Elmar oğluna –100% məxsusdur.

## 15. Faiz gəlirləri və xərcləri

| *(Azərbaycan Manatı ilə)* | 2021 | 2020 |
|---|---|---|
| **Faiz gəlirləri** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 417,819 | 576,967 |
| **Cəmi faiz gəlirləri** | **417,819** | **576,967** |
| **Faiz xərcləri** | | |
| Borc götürülmüş vəsaitlər | (78,988) | (85,236) |
| **Cəmi faiz gəlirləri** | **338,831** | **491,731** |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə yaradılan ehtiyat / bərpa | 71,719 | (572,334) |
| **Xalis faiz gəlirləri** | **410,550** | **(80,603)** |

Auditorlar şirkətin gəlirlərini həm dələduzluq, həm də uçotda mümkün ola biləcək səhv edilmə ehtimalı tərəfdən yoxlamış, müəssisə tərəfindən gəlirin Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun olaraq tanınmasını təsdiq etmişlər.



Scanned with CamScanner

## 16. Haqq və komissiya gəlirləri

| *(Azərbaycan Manatı ilə)* | 2021 | 2020 |
|---|---|---|
| Müştərilərə göstərilmiş xidmət haqqları | 11,842 | 24,040 |
| Maliyyə xidmətlərindən digər gəlirlər | 828 | 3,354 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **12,670** | **27,394** |

## 17. İnzibati və digər əməliyyat xərcləri

| *(Azərbaycan Manatı ilə)* | 2021 | 2020 |
|---|---|---|
| İşçilik xərcləri | (348,316) | (247,473) |
| İcarə xərci | (103,316) | - |
| İcarə üzrə amortizasiya xərci | (47,872) | (172,441) |
| Amortizasiya xərci | (41,519) | (63,759) |
| Audit və peşəkar xidmət xərcləri | (24,062) | (16,331) |
| Proqram təminatı xərcləri | (13,598) | (13,842) |
| Mal-material alınması üzrə xərclər | (11,907) | - |
| Rabitə xərcləri | (8,250) | (1,885) |
| Kommunal xidmətlər | (7,081) | (5,721) |
| Reklam xərcləri | (5,873) | - |
| Ezamiyyə xərcləri | (5,588) | - |
| Təmir və saxlanma xərcləri | (4,213) | (7,684) |
| Nəqliyyat vasitələrin istismar xərcləri | (3,551) | - |
| Mühafizə xərcləri | (2,835) | (1,436) |
| Vergi xərci | (259) | (476) |
| Digər xərclər | (54,017) | (53,102) |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **(682,257)** | **(584,150)** |

## 18. Maliyyə Risklərinin İdarə Edilməsi

Öz fəaliyyəti gedişində Təşkilat müxtəlif risklərə məruz qalır və bunları daimi müəyyən etmə, ölçmə və müşahidə etmə prosesləri, kredit limitlərinin müəyyən edilməsi və digər daxili nəzarət tədbirləri vasitəsilə idarə edir. Risklərin idarə edilməsi Təşkilatın möhkəmliyi və mənfəətliliyi üçün mühüm əhəmiyyət kəsb edir. Təşkilatın hər bir əməkdaşı öz vəzifələri daxilində risklərə görə məsuliyyət daşıyır. Təşkilat kredit riski, likvidlik riski, bazar riski və əməliyyat risklərinə məruz qalır.



Scanned with CamScanner

Təşkilat daxilində risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri) əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

**Risklərin idarə olunması strukturu**

İdarə Heyəti risklərin müəyyən edilməsi və nəzarət edilməsinə görə ümumi məsuliyyət daşıyır, lakin risklərin idarə olunması və izlənməsi üçün məsuliyyəti ayrıca müstəqil orqanlar daşıyır.

**İdarə Heyəti.**

İdarə Heyəti risklərin idarə olunmasında ümumi yanaşma, risk strategiyaları və prinsiplərinin təsdiq edilməsi üçün məsuliyyətlidir.

**Risklərin idarə olunması**

Təşkilatda Risklərin idarə olunması departamenti mövcud deyil, lakin müstəqil nəzarət prosesini təmin etmək məqsədilə risklə bağlı prosedurların tətbiqi və dəstəklənməsi üçün məsuliyyət daşıyan qurumun olması labüddür. Təşkilatda risklərin idarəedilməsi funksiyası Təşkilatın Müşahidə Şurası və bütün əməkdaşlarının vəzifə və səlahiyyətlərinin ümumi strukturuna daxildir.

**Daxili Audit**

Daxili audit funksiyası hər il Təşkilatda risklərin idarə olunması proseslərinin audit yoxlamasını apararaq, həm prosedurların münasibliyini, həm də Təşkilatın prosedurlara riayət etməsini yoxlayır. Daxili Audit bütün qiymətləndirmələrin nəticələrini rəhbərliklə müzakirə edir və nəticə və tövsiyələr haqqında Audit Komitəsinə hesabat verir.

**Risklərin ölçülməsi və hesabat sistemləri**

Təşkilatın riskləri həm adi şəraitdə yaranması ehtimal edilən zərəri, həm də statistik modellər əsasında maksimal faktiki zərərlərin qiymətləndirilməsi olan gözlənilməyən zərərləri əks etdirən metoddan istifadə etməklə ölçülür. Modellər keçmiş təcrübədən əldə edilmiş və iqtisadi şəraitləri nəzərə almaqla düzəlişlər edilmiş ehtimallardan istifadə edir. Bundan əlavə, Təşkilat baş verməsi ehtimal edilməyən fövqəladə hadisələr baş verdiyi təqdirdə daha pis hadisələrin ssenari modellərini hazırlayır.



Scanned with CamScanner

Risklərin monitorinqi və nəzarət edilməsi ilk öncə Təşkilatın müəyyən etdiyi limitlərə əsaslanır. Belə limitlər Təşkilatın biznes strategiyasını və bazar mühitini, eləcə də Təşkilatın qəbul etmək istədiyi risk səviyyəsini əks etdirir və bu zaman əsas diqqət ayrı-ayrı sahələrə yetirilir. Bundan əlavə, Təşkilat bütün risk və əməliyyat növləri üzrə məcmu risk həcmi ilə bağlı olaraq ümumi risk daşımaq qabiliyyətinə nəzarət edir və ölçür. Bütün fəaliyyət növləri üzrə əldə edilmiş məlumat risklərin təhlil və nəzarət edilməsi və tez aşkar olunması məqsədilə yoxlanılır və işlənilir. Müntəzəm olaraq fəaliyyət sahəsi və müştəri riskləri kəsiyində risklər haqqında məlumat təqdim edilir.

**Kredit riski**

Kredit riski – Təşkilatın sifarişçiləri, müştəriləri və ya biznes tərəfdaşları müqavilə öhdəliklərini yerinə yetirmədikləri üçün Təşkilatın zərər çəkməsi riskidir. Təşkilat kredit riskini ayrı-ayrı biznes tərəfdaşları və coğrafi və sənaye konsentrasiyaları üzrə Təşkilatın qəbul etməyə hazır olduğu riskin həcmi üzrə limitləri müəyyən etməklə və həmin limitlərə riayət edilməni monitorinq etməklə idarə edir və nəzarət altında saxlayır.

Təşkilat kredit keyfiyyətinin yoxlanılması prosesini təsis etmişdir ki, girovun müntəzəm qaydada yenidən baxılması da daxil olmaqla müştərinin krediti ödəmək qabiliyyətində mümkün dəyişikliklərin tez müəyyən edilməsi təmin edilsin. Kredit keyfiyyətinin müntəzəm qaydada yenidən baxılması prosesi Təşkilata məruz qaldığı risklər nəticəsində potensial zərəri qiymətləndirmək və lazımi tədbirləri görmək imkanını yaradır. Kredit risklərini azaltmaq məqsədilə Təşkilat fəal şəkildə girovdan istifadə edir.

Təşkilatın Müşahidə Şurası tərəfindən təsdiqlənmiş Kredit Siyasətinə uyğun olaraq mümkün kredit risklərinin diversifikasiyasını və azaldılmasını təmin etmək üçün kredit portfeli üzrə təminatın növü üzrə limitlər müəyyən edilmişdir.

İdarə Heyəti hər rüb limitləri müəyyən edir və onları nəzərdən keçirir. Bazar şəraitində əhəmiyyətli dəyişikliklər baş verdiyi təqdirdə həmin limitlərə yenidən baxıla bilər. Limitlərin dəyişməsi ilə bağlı təklif əvvəlcə Kredit Komitəsi, sonra isə İdarə Heyəti tərəfindən tesdiqlənir.

Kredit Departamenti müntəzəm olaraq bütün limitlərə riayət edilməsinə nəzarət edir və bəzi limitlər (bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupuna verilmiş kreditlərin maksimum məbləği və əlaqəli tərəflərə verilmiş kreditlərin maksimum məbləği) hər hansı yeni kreditin verilməsindən əvvəl yoxlanılır.



Scanned with CamScanner

Təşkilat məruz qaldığı kredit riskinə bir borcalan, eləcə də coğrafi və ya fəaliyyət seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir. Bu cür risklərə Kredit Komitəsi kimi Təşkilatın müvafiq bölmələri tərəfindən gündəlik nəzarət olunur. Həmçinin İdarə Heyəti tərəfindən hər ay nəzarət olunur və vaxtı keçmiş kreditlərin sayının azadılması tələb olunduqda, prosedurlarin təkmiləşdirilməsi məqsədilə il ərzində mütəmadi olaraq nəzərdən keçirilir. Kredit riski səviyyəsinin məhsul, borcalan və sənaye sahələri üzrə limitləri müntəzəm olaraq Rəhbərlik tərəfindən təsdiqlənir. Təşkilatın kredit siyasəti kreditlərin verimməsi prosesinə cəlb olunan Təşkilatın hər bir əməkdaşının vəzifə və səlahiyyətlərini tənzimləyir, eləcə də kreditlərin verilməsi limitlərini, kreditlərə nəzarət qaydalarını, Təşkilatın tətbiq etdiyi reytinq sisteminin prinsiplərinə və kreditlərin verilməsi prosedurlarını müəyyən edir.

***Kreditinin təsdiqlənməsi proseduru və səlahiyyətlərin müəyyən edilməsi.*** Kreditin təsdiqlənməsi prosesi Təşkilatın Kredit Siyasətində nəzərdə tutulan prosedurlara uyğun olaraq həyata keçirilir. Kreditin təsdiqlənməsi səlaiyyətləri hər bir biznes vahidi üzrə Təşkilatın Rəhbərliyi tərəfindən təsdiqlənmiş limitlər çərçivəsində müəyyən edilir.

***Kreditlərin təsdiqlənməsi üzrə səlahiyyətlər.*** Kreditlərin verilməsindən əvvəl Təşkilat, potensial borclarının ətraflı qiymələndirilməsini aparır. Bu təhlil potensial borclarının maliyyə vəziyyətinə, bazardaki mövqeyinə, kreditin təminatı üçün qoyulmuş girovun növünə və dəyərinə, eləcə də kredit tarixçəsinə əsaslanır.

Kredit monitorinqləri kredit borcalan üzrə Təşkilatın daxili risk reytinqini nəzərə alaraq, kreditin ümümi müddəti ərzində müntəzəm şəkildə aparılır. Bir cox hallarda planlaşdırılmış monitorinq hər rüb aparılır. Kreditin vaxtı keçdikdə, borcalana on gün ərzində bildiriş göndərilir.

Borcalan kredit ödəyə bilmədikdə 30 gün ərzində ikinci bildiriş göndərilir. Kreditlərin böyük hissəsi üzrə faiz ödənişləri hər ay aparılığına görə, bu Təşkilata borcalanın maliyyə vəziyyətinə dair əlavə məlumat əldə etmək imkanı verir. Ödənişlərin vaxtı gecikdirildiyi halda, Kredit Komitəsi tərəfindən əlavə monitorinq keçirilir. Həmin Şöbə Təşkilatın aktivlərinin təhlükəsizliyi və mümkün kredit riskləri və zərərlərin azadılmasını təmin etmək məqsədilə, bütün kredit növləri üzrə monitorinq aparır və monitorinqin nəticələrinə dair xüsusi hesabat hazırlayaraq onu Kredit Komitəsinə təqdim edir.

Təşkilatın bütün kreditlər üçün zəmanətlər və müxtəlif girov növləri (daşınmaz əmlak, əsas vəsaitlər, dövriyyədə olan mallar, qiymətli kağizlar və s.) şəklində təminat alınmasını nəzərdə tutur. Girovun qiymətləndirilməsi müstəqil peşəkar şirkət tərəfindən aparılır.



Scanned with CamScanner

**Kreditlərlə bağlı öhdəliklər riski.** Təşkilatın müştərilərə verdiyi zəmanətlər əsasında Təşkilat tərəfindən onların adından ödənişlər aparmaq zərurəti yarana bilər. Müştərilər bu ödənişləri Təşkilata akkreditivin şərtləri əsasında qaytarırlar. Onlar Təşkilatı kredit risklərinə oxşar risklərə məruz qoyur, bunlar da eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır. Maliyyə vəziyyəti haqqında hesabatın komponentləri üçün kredit riskinin maksimal həcmi daha yaxşı onların balans dəyərləri ilə əks etdirilir.

*Gözlənilən kredit zərərlərinin (ECL) qiymətləndirilməsi.* ECL gələcək pul axınlarındakı azalmaların ehtimal ilə ölçülmüş cari dəyərinin qiymətləndirilməsidir (yəni, müəyyən müddət ərzində çəki qismində müvafiq defolt riskləri istifadə olunmaqla kredit zərərlərinin orta çəkisidir). ECL-in qiymətləndirilməsi obyektivdir və gələcəkdə makroiqtisadi vəziyyətin inkişafı üzrə gözləntilərə defolt riskinin uyğunlaşdırılması yolu ilə müəyyən edilir. ECL-in qiymətləndirilməsi şirkət tərəfindən istifadə olunan dörd parametr əsasında həyata keçirilir: defolt ehtimalı ("PD"), defolta məruz qalan dəyər ("EAD"), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ ("LGD") və diskont dərəcəsi ("DR").

***Maliyyə aktivlərinin mərhələlər üzrə təsnifatı.*** Hazırkı maliyyə hesabatlarında tanınmış ECL səviyyəsi maliyyə aktivinin üç mərhələli model üzrə hansı mərhələyə təsnifləşdirilməsindən asılıdır.

1-ci Mərhələdə - ilkin tanınma zamanı dəyərsizləşməmiş və həmin vaxtdan kredit riski əhəmiyyətli dərəcədə artmamış maliyyə aktivləri üzrə 12 aylıq ECL əsasında dəyərsizləşmə ehtiyatı tanınır.

İlkin tanınma vaxtından etibarən kredit riski əhəmiyyətli dərəcədə artmış, lakin hələ dəyərsizləşmiş maliyyə aləti 2-ci Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır.

Maliyyə aləti dəyərsizləşdikdə 3-cü Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Aktivin 3-cü Mərhələyə köçürülməsi nəticəsində Təşkilat faiz gəlirini ümumi balans dəyəri əsasında tanımağı dayandırır və faiz gəlirini hesablayarkən gözlənilən kredit zərərləri çıxılmaqla, balans dəyərinə aktivin nominal faiz dərəcəsini tətbiq edir.



Scanned with CamScanner

**Dəyərsizləşmə**

Şirkət FVTPL ilə ölçülməyən aşağıdakı maliyyə alətləri üçün gözlənilən kredit itkiləri üzrə ehtiyat tanıyır:

- borc alətləri olan maliyyə aktivləri.

Şirkət itki ehtiyatlarını aşağıdakılar istisna olmaqla bütöv müddət üçün ECL-ə bərabər miqdarda ölçür. Bunlar 12 aylıq ECL kimi qiymətləndirilir:

- hesabat tarixində aşağı kredit riskinin olduğu müəyyən edilmiş borc alətləri;
- kredit riskinin ilkin tanınmasından bəri əhəmiyyətli dərəcədə artmayan digər maliyyə alətləri.

12 aylıq ECL, hesabat tarixindən sonrakı 12 ay ərzində mümkün olan maliyyə alətində baş verən hadisələr nəticəsində yaranan ECL hissəsidir. 12 aylıq ECL-nin tanındığı maliyyə alətlərinə "Mərhələ 1" maliyyə alətləri deyilir.

Bütöv müddət üçün ECL maliyyə alətinin gözlənilən müddəti ərzində baş verə biləcək bütün mümkün hadisələr nəticəsində yaranan ECL-dir. Bütöv müddət üçün ECL-in tanındığı maliyyə alətləri, ilkin tanınmadan bəri kredit riskinin əhəmiyyətli dərəcədə artdığı və "Mərhələ 3" olmayan maliyyə alətləridir. "Mərhələ 3" maliyyə alətləri dəyərsizləşmiş maliyyə alətləridir.

**ECL-in ölçülməsi**

Hesablanmış kredit itkiləri aşağıdakı kimi ölçülür:

- Hesabat tarixində dəyərsizləşməmiş maliyyə aktivləri: bütün pul çatışmazlıqlarının cari dəyəri (yəni müqaviləyə uyğun olaraq müştəriyə veriləcək pul vəsaitlərinin hərəkəti ilə şirkətin əldə etməsini gözlədiyi pul axınları arasındakı fərq);
- Hesabat tarixində dəyərsizləşmiş maliyyə aktivləri: ümumi balans dəyəri ilə təxmin edilən gələcək pul axınlarının cari dəyəri arasındakı fərq kimi;

**Dəyərsizləşmiş maliyyə aktivləri**

Şirkət proqnoz əsasında ECL-i amortizasiya olunmuş maya dəyəri ilə ölçülən borc alətləri üçün qiymətləndirir. Şirkət ECL ölçür və hər hesabat tarixində kredit itkisi ehtiyatını tanıyır. ECL-nin ölçülməsi özündə bir sıra mümkün nəticələrin, pulun zaman dəyəri və keçmiş haqqında hər hesabat dövrünün sonunda əsassız xərc və səy göstərilmədən əldə edilə bilən bütün ağlabatan və dəstəklənən məlumatlar qiymətləndirilməklə müəyyən edilən qərəzsiz və ehtimal olunan, ölçülmüş məbləğ, hadisələr, mövcud şərtlər və gələcək vəziyyətlərin proqnozlarını əks etdirir.



Scanned with CamScanner

Şirkət ilkin tanınmadan kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanan dəyərsizləşmə üçün üç mərhələli model tətbiq edir. İlkin tanınmada dəyərsizləşməmiş maliyyə aləti Mərhələ 1-də təsnif edilir. Mərhələ 1-də maliyyə aktivləri sonrakı 12 ay ərzində və ya müqavilə müddətinə qədər mümkün olan hadisələr nəticəsində yaranan bütöv müddət üçün ECL hissəsinə bərabər olaraq ölçülür. Şirkət ilkin tanınmadan bəri kredit riskinin əhəmiyyətli dərəcədə artmasını müəyyənləşdirsə, aktiv Mərhələ 2-yə köçürülür və ECL bütöv müddət üçün ECL kimi, müqavilə müddətinə qədər, gözlənilən ilkin ödənişləri nəzərə alaraq ölçülür. Şirkət maliyyə aktivinin dəyərsizləşdiyini müəyyənləşdirsə, aktiv Mərhələ 3-ə köçürülür, ECL bütöv müddət üçün ECL kimi ölçülür.

Hər bir hesabat tarixində şirkət, amortizasiya dəyəri ilə uçota alınan maliyyə aktivlərinin kredit dəyərsizləşməsini qiymətləndirir. Maliyyə aktivinin gələcək pul vəsaitlərinin hərəkətinə mənfi təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə maliyyə aktivi dəyərsizləşir.

Maliyyə aktivinin kredit dəyərsizləşməsinə dair sübut aşağıdakı müşahidə edilə bilən məlumatları özündə ehtiva edir:
- Borcalanın şirkət qarşısında hər hansı bir kredit öhdəliyi üzrə 90 gündən artıq vaxtı keçmişdir.
- Borcalanın əhəmiyyətli maddi çətinliyi müşahidə olunur.
- Kreditin əlverişsiz şərtlərdə restrukturizasiya olunması.
- Müştərinin vəziyyətin pisləşməsi ilə bağlı hər hansı digər müvafiq məlumat

**Kredit riskinin əhəmiyyətli dərəcədə artması**

Kredit riskində əhəmiyyətli artım olduğunu müəyyən etmək üçün, şirkət hesabat tarixinin sonuna maliyyə alətinin müddəti ərzində baş vermiş defolt riskini ilkin tanınma tarixində defolt riski ilə müqayisə edir. Şirkət, müəyyən müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən əsassız xərc və səy göstərmədən mövcud olan bütün məqbul və dəstəklənən perspektivli məlumatları nəzərdən keçirir. Şirkət kredit riskində əhəmiyyətli bir artım olub olmadığını müəyyən etmək üçün aşağıdakı meyarlardan istifadə edir:
- 30 gündən çox vaxtı keçmiş kredit öhdəliyi;
- Dəyərsizləşmiş maliyyə aktivlərinin tərifində göstəriləndən başqa şərtlərlə restrukturizasiya olunmuş kredit öhdəliyi

Gecikmiş günlər, tam ödəniş alınmadığı ən erkən vaxtından bəri günlərin sayılması ilə müəyyən edilir. Borcalana verilə biləcək hər hansı bir güzəşt müddəti nəzərə alınmadan ödəmə tarixi təyin olunur.
İlkin tanınma ilə müqayisədə kredit riskində artım olmadığına dair sübutlar varsa, bir alət üzrə zərər ehtiyatı 12 aylıq ECL kimi qiymətləndirilməyə qayıdır.



Scanned with CamScanner

**PD-nin müddət strukturu**

PD müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir. Hər bir maliyyə aktivi üzrə hesablanmış bütöv müddət üçün PD əyrisi portfelin müddətindən, reytinqindən və seqmentindən asılıdır. 12-aylıq defolt ehtimalı bütöv müddət üçün PD əyrisinin bir hissəsi kimi hesablanır. ECL-in hesablanması üçün iki növ defolt ehtimalından istifadə edilir: 12 aylıq və bütöv müddət üçün defolt ehtimalı. 12 aylıq defolt ehtimalının qiymətləndirilməsi əvvəlki dövrlər üzrə defolt haqqında mövcud olan ən son məlumatlara əsaslanır və zərurət yarandıqda, dəstəklənən proqnoz məlumatları da nəzərə alınır. Bütöv müddət üçün defolt ehtimalı maliyyə alətinin qalan müddəti ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsini əks etdirir və maliyyə alətinin bütün müddəti ərzində 12 aylıq defolt ehtimalının məbləğinə bərabərdir.

Şirkətin kreditləri üçün defolt (PD) ehtimalı xarici qiymətləndirmə məlumatları və şirkətin tarixi məlumatlarını istifadə edərək hesablanır. PIT PD dərəcələri tarixi orta miqrasiya dərəcələrindən hesablanır. PIT PD-lər Mərhələ 1-nin kreditlərinə tətbiq olunur. Kredit riskinin əhəmiyyətli dərəcədə artması halında TTC PD-lər kredit öhdəliklərində nəzərə alınır.

**Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi (ECL)**

ECL-in ölçülməsində əsas faktorlar aşağıdakı dəyişənlərin müddət strukturudur:

- Defolt ehtimalı (PD);
- Defolt zamanı itki (LGD);
- Defolta (EAD) məruz dəyər.

LGD defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək pul axınları ilə borcalanın əldə etməsi gözlənilən pul axınları arasındakı fərqə əsaslanır.

Mərhələ 1-də məruz dəyər üçün ECL, 12 aylıq PD-nin LGD və EAD-nin hasilindən hesablanır. Bütöv müddət üçün ECL, bütöv müddət üçün PD-nin LGD və EAD-nin hasilindən hesablanır. PD-lərin qiymətləndirilməsi metodu yuxarıda "PD-nin müddət strukturu" başlığı ilə müzakirə olunur.

EAD, defolt halında gözlənilən məruz dəyəri təmsil edir. Şirkət EAD-ni müştərinin cari öhdəliyindən və müqavilə çərçivəsində icazə verilən cari öhdəlikdə ola biləcək dəyişikliklərdən əldə edir. Maliyyə aktivinin EAD-si, defolt zamanı onun ümumi balans dəyəridir. EAD hesabat dövründən sonra riskin məbləğində gözlənilən dəyişiklikləri nəzərə alaraq, gələcək defolt tarixində riskin qiymətləndirilməsi, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin gözlənilən istifadəsidir.



Scanned with CamScanner

**Likvidlik riski**

Likvidlik riski adi və ya fövqəladə şəraitdə ödəniş tarixində Təşkilatın ödənişlə bağlı öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə rəhbərlik minimal depozit bazası, likvidliyi nəzərə almaqla aktivləri idarə edir və gələcək pul vəsaitləri hərəkətlərinin və likvidliyin gündəlik monitorinqini həyata keçirir. Likvidliyin idarə edilməsi vasitələri və müvafiq hesabatlar Təşkilatın İdarə Heyəti tərəfindən təsdiq edilir.

Likvidlik vəziyyəti Təşkilat tərəfindən əsas etibarı ilə ayrıca olaraq, Azərbaycan Respublikası Mərkəzi Bankının təyin etdiyi 30% minimal likvidlik əmsallarına əsaslanır. Təşkilatın likvidlik siyasəti aşağıdakılardan ibarətdir:

- Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivəsində likvidliyin təmin olunması üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Təşkilatın strateji məqsədlərinə uyğun maliyyə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanılması və beləliklə, Təşkilatın ölkə daxili və xarici mənbələrdən borc almaq imkanının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanılması;

**Coğrafi konsentrasiya.**

31 dekabr 2020-ci il tarixinə Təşkilatın bütün maliyyə aktivləri və öhdəlikləri Azərbaycan Respublikasında yerləşir.

**Bazar riski**

Bazar riski maliyyə alətlərinin gələcək pul vəsaitləri axınının ədalətli dəyəri faiz dərəcəsi və valyuta məzənnələri kimi bazar parametrlərində dəyişikliklər nəticəsində tərəddüd eləməsi riskidir. Təşkilatın əhəmiyyətli kapital, korporativ istiqraz və ya törəmə alətləri yoxdur.

Təşkilat bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) valyuta (b) faiz dərəcəsi və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazar risklərinin idarə edilməsinə Təşkilatın məruz qala biləcək açıq bazar mövqeləri üzrə mümkün zərər məbləğlərinin məhdudlaşdırılması və azadılmasından ibarətdir. İdarə Heyəti qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Bu limitlər ARMB-nin Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və Tənzimlənməsi Qaydalarına uyğun olaraq müəyyən edilir. Təşkilatın hər-hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Təşkilatın məcmu kapitalının 10.0 faizindən, bütün xarici valyutalar üzrə isə 15.0 faizindən artıq olmamalıdır. Təşkilat, ehtiyac yarandıqda ARMB-nin müəyyən etdiyi limitlərdən daha sərt limitlər müəyyən edə bilər.



Scanned with CamScanner

*Faiz dərəcəsi riski*

Faiz dərəcəsi riski maliyyə aktivlərinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitləri hərəkətlərinin faiz dərəcəsinin artması/azalması nəticəsində ucuzlaşması/bahalaşması riskidir. Rəhbərlik müntəzəm qaydada aktivlərin və öhdəliklərin faiz dərəcələri strukturunu ətraflı təhlil edərək, ümumi faiz dərəcəsi spredlərini nəzərdən keçirir. 31 dekabr 2020 və 2019-ci il tarixinə Təşkilatın dəyişən dərəcə ilə heç bir maliyyə aktivi və ya öhdəliyi olmamışdır.

| İllik % | 2021 | 2020 |
|---|---|---|
| **Aktivlər** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 30-50% | 18-29% |
| **Öhdəliklər** | | |
| Müddətli borc vəsaitləri | 0.1%-25% | 0.1% |
| Qiymətli kağızlar | 18% | 18% |

*Valyuta riski*

Valyuta riski – maliyyə alətinin dəyərinin xarici valyuta məzənnələrində dəyişmələrə görə tərəddüd etməsi riskidir. Təşkilat özünün maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə qüvvədə olan xarici valyuta məzənnələrindəki dəyişikliklərin təsir göstərməsi riskinə məruzdur.

Rəhbərlik valyuta riskinə AZN devalvasiyasının və digər makroiqtisadi göstəricilərin qiymətləndirilmiş əsasında açıq valyuta mövqeyini idarə etməklə nəzarət edir. Bu, Təşkilata imkan verir ki, valyuta dərəcələrinin milli valyutaya qarşı əhəmiyyətli dəyişməsindən zərərləri minimallaşdırsın. Azərbaycan Respublikasının Mərkəzi Bankını tələblərini yerinə yetirmək məqsədilə mühasibatlıq Təşkilatın açıq valyuta mövqeyinin gündəlik monitorinqini həyata keçirir.

*Əməliyyat riski*

Əməliyyat riski – sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlıq və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl gətirə, hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Təşkilat bütün əməliyyat risklərinin aradan götürülməsini güman edə bilməz, lakin nəzarət sistemi və potensial risklərin izlənməsi və onlarla bağlı tədbirlərin görülməsi həmin risklərin idarə edilməsi üçün effektiv alət ola bilər. Nəzarət sisteminə vəzifələrin səmərəli bölüşdürülməsi, giriş, təsdiqləmə və tutuşdurma prosedurları, heyətin təlimləndirilməsi və qiymətləndirilməsi prosesləri, eləcə də daxili auditdən istifadə daxildir.



Scanned with CamScanner

## 19. Kapitalın idarəedilməsi

Kapitalın idarə olunmasında Təşkilatın məqsədi ARMB-nın kapital adekvatlığı ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini, Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və kapital adekvatlıq əmsalının 20% həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir.

İdarə Heyəti hesab edir ki, Təşkilat 2021-ci il üçün bütün normativ tələblərə cavab verir.

## 20. Şərti Öhdəliklər

**Məhkəmə prosedurları.** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Təşkilata qarşı irəli sürülə biləcək iddialarla əlaqədər, Təşkilatın Rəhbərliyi öz təxminlərinə, eləcə də daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi ücün hər hansı ehtiyat yaradılmamışdır.

**Vergi qannunvericiliyi.** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Təşkilatın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq dövlət vergi orqanları tərəfindən etiraz edilə bilər.
Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər. Bunun nəticəsində, Təşkilata qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqdim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2021-ci və 2020-ci il tarixlərində Təşkilatın binaları və avadanlıqları ilə əlaqədar kapital məsrəfləri ilə bağlı öhdəlikləri olmamışdır.



Scanned with CamScanner

## 21. Maliyyə alətlərinin ədalətli dəyəri

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Təşkilat tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Təşkilat müəyyən qiymətləndirmə üsulları ilə maliyyə alətlərinin ədalətli dəyərini açıqlamaq üçün aşağıdakı qiymətləndirmə səviyyələrindən istifadə edir:

**Səviyyə 1:** Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin (ictimai satışa çıxarılan törəmələr, ticarət və satıla bilən qiymətli kağızlar və s.) ədalətli dəyəri hesabat dövrünün sonunda bazar qiymətlərinə əsaslanır. Təşkilat tərəfindən saxlanılan maliyyə aktivləri üçün istifadə olunan bazar qiyməti cari təklif qiymətini əks etdirir. Bu alətlər 1-ci səviyyəyə daxil edilir.

**Səviyyə 2:** Fəal bazarda alınıb-satıla bilməyən maliyyə alətlərinin (hesabdan əlavə törəmələr) ədalətli dəyəri müəssisənin təxminlərinə daha az etibar edərək və mümkün qədər müşahidə edilən bazar məlumatlarına əsaslanan qiymətləndirmə üsullarından istifadə etməklə müəyyən edilir. Ədalətli dəyər aləti tələb olunan bütün əhəmiyyətli müşahidələr mövcuddursa, alət 2-ci səviyyəyə aid edilir.

**Səviyyə 3:** Bir və ya daha çox əhəmiyyətli amillər müşahidə oluna bilən bazar məlumatlarına əsaslana bilmirsə, bu maliyyə aləti 3-cü səviyyəyə aid edilir. Bu hal bazara çıxarılmamış qiymətli kağızlar üçün nəzərdə tutulur. Aşağıdakı cədvəl maliyyə alətlərini dəyər iyerarxiyasının səviyyəsilə müəyyən edilən ədalətli dəyərlə təhlil edir.



Scanned with CamScanner

| | 31 dekabr 2021-ci il | | | |
|---|---|---|---|---|
| *(Azərbaycan manatı ilə)* | **1-ci Səviyyə** | **2-ci Səviyyə** | **3-cü Səviyyə** | **Cəmi Balans dəyəri** |
| **Maliyyə aktivləri** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 83,354 | - | - | 83,354 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | - | - | 1,905,402 | 1,905,402 |
| **Cəmi maliyyə aktivləri** | **83,354** | **-** | **1,905,402** | **1,988,756** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Müddətli borc öhdəlikləri | - | - | 977,270 | 977,270 |
| İcarə öhdəliyi | - | - | 81,961 | 81,961 |
| Digər öhdəliklər | - | - | 55,335 | 55,335 |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **-** | **1,114,566** | **1,114,566** |

| | 31 dekabr 2020-ci il | | | |
|---|---|---|---|---|
| *(Azərbaycan manatı ilə)* | **1-ci Səviyyə** | **2-ci Səviyyə** | **3-cü Səviyyə** | **Cəmi Balans dəyəri** |
| **Maliyyə aktivləri** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 350,511 | - | - | 350,511 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | - | - | 1,453,335 | 1,453,335 |
| **Cəmi maliyyə aktivləri** | **350,511** | **-** | **1,453,335** | **1,803,846** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Müddətli borc öhdəlikləri | - | - | 428,917 | 428,917 |
| İcarə öhdəliyi | - | - | 44,425 | 44,425 |
| Digər öhdəliklər | - | - | 31,855 | 31,855 |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **-** | **505,197** | **505,197** |



Scanned with CamScanner

Likvid və ya qısa müddətli (üç aydan az) maliyyə aktivləri və maliyyə öhdəliklərinin balans dəyərinin onların ədalətli dəyərilə eyni olduğu güman edilir. Müştərilərə verilmiş kreditlər istisna olmaqla Təşkilatın maliyyə aktivləri və maliyyə öhdəlikləri likvid hesab olunur və ya hesabat tarixindən etibarən üç ay ərzində müddətinin tamamlanması gözlənilir. Müştərilərə verilmiş kreditlərin ədalətli dəyəri ilk analoji maliyyə aktivləri üçün cari bazarda təklif olunan və tanınan faiz dərəcələri müqayisə olunaraq təxmin edilir. 31 dekabr tarixinə mövcud olan kreditlərin əksər hissəsi həmin tarixdə bitən dövrün 12 ayı ərzində və bazar faiz dərəcələrilə verilmişdir, 2020-ci ildə verilən kreditlərin müqavilə üzrə faiz dərəcələri isə 31 dekabr 2021-ci il tarixinə olan bazar faiz dərəcələrinə yaxın qiymətləndirilir.

## 22. Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması

BMS 24 *"Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması"* standartına uyğun olaraq tərəflər o halda əlaqəli tərəf hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarındadır. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər. Əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğdə aparılmır.

## 23. Hesabat dövründən sonra baş vermiş hadisələr

Müəssisədə kənar audit yoxlaması aparılan zamanı bütün dünya Koronavirus (COVID-19) pandemiyasından əziyyət çəkirdi. Azərbaycan Respublikasına da bu virusun təsiri böyük olmuşdur və ölkədə karantin elan olunmuşdur. Pandemiyaya qarşı mübarizə cari dövr ərzində də davam etdirilir və bu qeyri-müəyyənliyin nə qədər davam edəcəyi bilinməyincə, karantin şəraiti müəssisənin əsas fəaliyyətində böyük itkilərə səbəb olur. Belə ki azalmalar müşahidə olunur.
2022-ci il üçün bütün ölkə üzrə investisiya yönümlü siyasət müşahidə olunacağı gözlənilir ki, bu da əksər sahələrdə biznesə ediləcək yatırımların təyinatının dəyişməsi ilə biznesin inkişafına mənfi təsir göstərə bilər. Yuxarıda qeyd olunan hallar Təşkilatın ümumi davamedici fəaliyyətinə mane olmamalıdır və virus pandemiyası qurtaran kimi, Təşkilat əvvəlki iş rejiminə qayıtması üçün rəhbərliyin iş planı mövcuddur.



Scanned with CamScanner